*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır  12 may 2018-ci il  № 36 (2252)  Qiymıəti 25 qəpik


## Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib



*Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü günüdür.*

Yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zaman və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan bir fikirdir. Zaman onu da sübut edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin tərcümeyi-halıdır. Heydər Əliyevin tərcümeyi-halı isə Azərbaycan tarixidir. Çünki onun hakimiyyətdə olduğu illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətirib. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çevirib. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq da öyünür.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev istər Sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri idi. Bu səbəbdən də "Azərbaycan sənin üçün kiçikdir, sən ittifaqa lazımsan" deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi, Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.

Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu Öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşdi.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, Ulu Öndərin doğmaları və yaxınları xalqımızın xilaskar oğlunun doğum günündə Ümummilli Liderin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.

# Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib

*Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib.*

*AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzində keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*



- Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümüdür. Bu gün Azərbaycan xalqı bir daha Ulu Öndərin əziz xatirəsinə öz hörmət və ehtiramını bildirir.

Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olmuşdur.

Sovet dövründə Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə Azərbaycan uğurla, sürətlə inkişaf edib. 1969-cu ildə o, Azərbaycan Respublikasının rəhbəri seçiləndə Azərbaycan sovet məkanında ən geridə qalmış respublikalardan biri idi. Bunu sosial-iqtisadi göstəricilər də təsdiq edir. 13 il ərzində yorulmaz fəaliyyət nəticəsində Azərbaycan sovet məkanında ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Əgər sovet dövründə - 1980-ci illərdə iki donor respublika var idisə, onlardan biri Azərbaycan idi. Azərbaycan ümumittifaq xəzinəsinə daha çox vəsait verirdi, nəinki alırdı.

Məhz o illərdə Azərbaycanda sənaye inkişafı böyük templərlə təmin olunurdu. Yüngül sənayedə, ağır sənayedə, neft sənayesində böyük işlər görülmüşdür. O vaxt yaradılmış infrastruktur bu gün müstəqil Azərbaycanın inkişafına xidmət göstərir. Kənd təsərrüfatına böyük diqqət göstərilirdi. Azərbaycan böyük tikinti meydançasına çevrilmişdi. Yəni, 1982-ci ilin sosial-iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, doğrudan da Heydər Əliyevin rəhbərliyi ilə 13 il ərzində böyük işlər görülmüşdür və Azərbaycan, qeyd etdiyim kimi, qabaqcıl yerlərdə idi.

Onun gördüyü işlər, prinsipiallığı, şəxsi keyfiyyətləri, əlbəttə ki, sovet rəhbərliyində də yüksək qiymətləndirilirdi. 1982-ci ildə Leonid Brejnev vəfat edəndən və Yuri Andropov hakimiyyətə gələndən sonra onun ilk təyinatı məhz Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Heydər Əliyevi Moskvaya dəvət etmiş və ona yüksək vəzifə təklif etmişdir - Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büronun üzvü vəzifələrini.

Mən yaxşı xatırlayıram, atam bir neçə gün tərəddüd edirdi, Azərbaycandan getmək istəmirdi. Onun gördüyü işlər, əlbəttə ki, Azərbaycanı böyük dərəcədə inkişaf etdirmişdi və Azərbaycanın gələcək inkişafı ilə bağlı böyük planları var idi. Ancaq o vaxt təbii ki, güclü nizam-intizam var idi və eyni zamanda, sovet dövləti qarşısında yeni vəzifələr durmuşdu və o, bu yüksək məsuliyyəti öz üzərinə götürmüşdü. 1982-1987-ci illərdə o, bir çox önəmli sahələrə rəhbərlik edərək sovet dövlətinin uğurlu inkişafına öz töhfəsini vermişdir. Onun bilavasitə rəhbərliyi ilə böyük infrastruktur layihəsi olan Baykal-Amur dəmir yolu uğurla inşa edilmişdir, onun tikintisi tamamlanmışdır.

Eyni zamanda, daim Azərbaycana böyük diqqət, kömək göstərirdi. Əlbəttə, onun burada gördüyü işlər və fəaliyyəti imkan verirdi ki, o, Azərbaycanı tərk edəndən sonra da Azərbaycan inkişaf etsin. Ancaq buna baxmayaraq respublikada sosial-iqtisadi göstəricilər getdikcə aşağı düşürdü, vəziyyət tənəzzülə uğrayırdı. Nəticədə 1980-ci illərin sonlarında - 1990-cı illərin əvvəllərində Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdır.

Bir sözlə, o dövrdə Ulu Öndər çox böyük işlər görmüşdür və sovet məkanında onun xatirəsinə bu gün çox böyük hörmət və ehtiram var. Mənim onunla bərabər işləyən şəxslərlə çoxsaylı görüşlərim deməyə əsas verir ki, o, sözün əsl mənasında, böyük hörmətə layiq olan insan idi.

1987-ci ildə heç bir əsas olmadan ovaxtkı sovet rəhbərliyi tərəfindən Heydər Əliyev bütün vəzifələrdən uzaqlaşdırıldı. Bunun heç bir əsası yox idi. Çünki onun peşəkarlığı, gördüyü işlərin nəticələri, əlbəttə ki, ona qarşı edilən ədalətsizliyə uyğun gəlmirdi. Ancaq o vaxt sovet rəhbərliyində olan adamlar, sovet dövlətinin rəhbərləri ona qarşı çox mənfi münasibət göstərirdi. Heydər Əliyev çox prinsipial, sözünü deyən insan idi. O görürdü ki, ölkədə vəziyyət pisləşməyə doğru gedir. O görürdü ki, real islahat əvəzinə, boşboğazlıq, populizm hökm sürür. O görürdü ki, qəbul edilmiş qərarlar sovet dövlətinin zəifləməsinə xidmət göstərir. Eyni zamanda, 1985-ci ildən başlayaraq, Sovet İttifaqında milli münasibətlər sahəsində çox böyük pozuntulara yol verilmişdir. Sovet dövlətini vahid bir dövlət kimi saxlayan, ilk növbədə, milli münasibətlərin tənzimlənməsi idi. 1985-ci ilə qədər bu münasibətlər, demək olar ki, sağlam zəmində qurulmuşdur. Bütün xalqlar rahat inkişaf edə, öz mədəniyyətini qoruya bilirdilər.

Ona görə bütün bu xoşagəlməz meyillərə qarşı Heydər Əliyev biganə qala bilməzdi, öz səsini ucaldırdı və əlbəttə ki, bu, sovet rəhbərliyinin xoşuna gəlmirdi. Heç bir əsas olmadan bütün vəzifələrdən uzaqlaşdırılandan sonra Azərbaycan böyük dayağı itirmiş oldu. Bizim mənfur qonşularımız dərhal bundan istifadə etdilər, onun istefasından iki həftə keçməmiş erməni separatçıları və onların mərkəzdəki havadarları məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilsin.

Yəni, Heydər Əliyev amili, güclü şəxsiyyətin dövlətin mərkəzində olması imkan vermirdi ki, belə separatçı meyillər baş qaldırsın. Baxmayaraq ki, 1969-cu ilə qədər belə meyillər var idi. Ancaq Heydər Əliyev Azərbaycana rəhbər vəzifəsinə gələndən sonra bütün bu meyillərin qarşısı alınmışdır.

O vaxtdan xalqımıza, respublikamıza qarşı çox böyük ədalətsizliklər edilmişdir. Bunun nəticəsində Azərbaycan böyük fəlakətlə üzləşmişdir. Tam əminliklə deyə bilərəm ki, əgər Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, Azərbaycan rəhbəri kimi heç vaxt imkan verməzdi ki, separatçı meyillər baş qaldırsın və Dağlıq Qarabağ münaqişəsi başlasın. Çünki onun qətiyyəti, cəsarəti, nüfuzu heç vaxt imkan verməzdi ki, belə meyillər mövcud olsun. Ancaq ondan sonrakı rəhbərlər, əfsuslar olsun ki, zəiflik göstərmişlər, prinsipiallıq göstərməmişlər və onlar üçün öz şəxsi karyerası xalqın mənafeyindən qat-qat böyük əhəmiyyət kəsb edirdi.

1990-cı ilə qədər Heydər Əliyev pensiyaçı kimi yaşayırdı. Baxmayaraq ki, Heydər Əliyevə qarşı mərkəzdə təşkil edilmiş qarayaxma kampaniyaları aparılırdı, ancaq Azərbaycan xalqı ona olan hörmətini daim öz qəlbində yaşadırdı. 1990-cı ilin faciəvi günlərində Heydər Əliyev əsl lider kimi yenə də öz xalqının yanında yer tutdu, xalqa yol göstərdi. Mən o dəhşətli günləri yaxşı xatırlayıram, sovet hökuməti, sovet rəhbəri tərəfindən Azərbaycan xalqına qarşı böyük cinayət törədilmişdi. Qanlı Yanvar faciəsi böyük cinayətdir, öz xalqına qarşı böyük cinayətdir. Yüzdən çox günahsız insan vəhşicəsinə qətlə yetirilmişdir, yüzlərlə insan yaralanmışdır və itkin düşmüşdür. Heydər Əliyev dərhal bu ədalətsizliyə qarşı öz səsini ucaltdı. Yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, - mən də onun yanında idim, - orada sovet rəhbərliyini, bu vəhşi aktı pislədi və Azərbaycan xalqına öz həmrəyliyini ifadə etdi. Bu, böyük cəsarət tələb edən addım idi. Çünki o vaxt Heydər Əliyev sovet təbliğatında çox böyük təzyiqlərə, böyük kampaniyalara məruz qalırdı. Ancaq xalqın ona olan sevgisini bu çirkin əməllər söndürə bilməzdi. Əksinə, xalq görürdü ki, öz liderinə qarşı böyük ədalətsizlik törədilir və onun ətrafında daha da sıx birləşməyə cəhd göstərirdi. 1990-cı il yanvarın 21-də Heydər Əliyevin Moskvada daimi nümayəndəlikdə keçirilmiş mətbuat konfransındakı çıxışı dəfələrlə dərc edilib, televiziyada göstərilib. Yenə də deyirəm, bu, böyük cəsarət tələb edən addım idi. Bu addım bir daha göstərirdi ki, Azərbaycan xalqının problemləri, mənafeyi, dərdi onun üçün hər şeydən üstündür, hər şeydən əzizdir və ağır günlərdə o, mütləq öz xalqının yanında olmalı idi. Onu da qeyd etməliyəm ki, o vaxt sovet hakimiyyəti hələ möhkəm idi, Sovet İttifaqının dağılmasına hələ iki il vaxt qalırdı. Heç kimin ağlına gələ bilməzdi ki, nə vaxtsa sovet dövləti dağılacaq.

Ondan sonra Heydər Əliyev uzun illər xidmət etdiyi Kommunist Partiyasının sıralarından çıxdı. Çox ciddi bəyanat vermişdi və təbii ki, ona qarşı bundan sonra da təzyiqlər, təqiblər daha da geniş vüsət almışdı, hətta tam dəqiq məlumata görə, onun həbsi məsələsi də qoyulmuşdu. Moskvada qalmaq mümkün deyildi, onun bütün ailə üzvlərinə qarşı da çox ciddi addımlar atılmışdı. Bütün ailə üzvləri tutduqları vəzifələrdən, - vəzifələr o qədər də böyük vəzifələr deyildi, adi vəzifələr idi, - çıxarılmışdı. Demək olar ki, sovet hakimiyyətinin repressiya maşınının nəticələrini biz o vaxt görmüşük və hiss etmişik.

**(Ardı 3-cü səhifədə)**

# Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib

(Əvvəli 2-ci səhifədə)



Heydər Əliyev doğma Vətənə üz tutur və Bakıya gəlir. Əfsuslar olsun ki, Bakıda da ona yaşamağa imkan vermədilər və Naxçıvana - doğulduğu yerə gedib orada yaşamağa məcbur olur və Azərbaycan xalqı onun ətrafında birləşməyə başlayır. Azərbaycan xalqı açıq-aydın görürdü ki, bu ağır vəziyyətdən xalqı, ancaq Heydər Əliyev çıxara bilər, xalqı ancaq o xilas edə bilər. Naxçıvanlılar onun ətrafında sıx birləşərək Heydər Əliyevi Ali Məclisin sədri vəzifəsinə seçdilər və o, Naxçıvanı işğaldan qorudu. Çünki o vaxt Ermənistan Naxçıvanı da işğal etmək istəyirdi. Ancaq Heydər Əliyev buna imkan vermədi. Orada böyük səfərbərlik işləri görülmüşdür, özünümüdafiə dəstələri yaradılmışdır və Naxçıvanın işğalına imkan verilməmişdir. Naxçıvanlılar da Heydər Əliyevi qorudular. Çünki o vaxt - 1992-ci ildə hakimiyyəti qanunsuz, dövlət çevrilişi nəticəsində zəbt etmiş AXC-Müsavat hakimiyyəti Heydər Əliyevə qarşı işlərə başlamışdı və Naxçıvanda da çevriliş etmək fikirləri var idi. Hətta o vaxt Daxili İşlər Nazirliyinin daxili qoşunlarının bir dəstəsini Naxçıvana desant göndərmək istəmişlər, naxçıvanlıları, Heydər Əliyevi hədələmişdilər, ancaq sonra bu çirkin əməllərdən əl çəkməli oldular. Çünki gördülər ki, onları çox ciddi müqavimət gözləyir və bu, avantüra onlara çox baha başa gələ bilər və yenə də, - sonra da bunu dəfələrlə göstərəcəklər, - qorxaqlıq göstərərək öz çirkin niyyətlərindən əl çəkməli oldular.

Naxçıvan dövrü çox yaddaqalan dövrdür. Mən o dövrü çox yaxşı xatırlayıram. Mən dəfələrlə Naxçıvana atamın yanına getmişəm, onunla bərabər olmuşam. Çox ağır vəziyyətdə Naxçıvanın qorunması, Naxçıvanın yaşaması üçün çox böyük işlər görülmüşdür. Müstəqilliyimiz üçün də çox böyük işlər görülmüşdür. Çünki uzun fasilədən - 1920-ci ildən sonra ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin sessiyasında rəsmi dövlət bayrağı kimi təsdiq olundu. Bu, müstəqilliyə gedən yolun başlanğıcı idi.

Azərbaycanda vəziyyət getdikcə gərginləşirdi, torpaqlarımız erməni işğalı altına düşürdü. Ovaxtkı AXC-Müsavat hakimiyyəti xalqın ümidlərini doğrulda bilmədi, öz yarıtmaz, xəyanətkar siyasəti ilə Azərbaycan xalqına, Azərbaycan dövlətçiliyinə böyük zərbələr vurdu və demək olar ki, ölkəni idarəolunmaz vəziyyətə gətirdi. Xaos, anarxiya, talançılıq, özbaşınalıq, siyasi, iqtisadi, hərbi böhran hökm sürürdü, torpaqlarımız işğal altına düşürdü. Azərbaycanın ovaxtkı iqtidarı isə öz laxlayan hakimiyyətini qorumaq üçün cinayətlərə, vətəndaş müharibəsinə əl atmışdır. Biz o günləri, o illəri yaxşı xatırlayırıq. Öz hakimiyyətini saxlamaq üçün Gəncəni bombalamağa qərar vermişdi və Gəncənin dağılmış binalarının o mənzərəsi bu gün bizim gözümüzün qabağındadır. Azərbaycan xalqı o anti-milli hakimiyyətə yox demişdir, cəmi bir il ona dözə bilmişdir və öz lideri ətrafında birləşmişdir. Hələ 1992-ci ildə Azərbaycanın qabaqcıl ziyalıları, tanınmış insanlar, ictimai xadimlər Heydər Əliyevə müraciət edərək partiyanın yaradılması ilə bağlı təkliflər irəli sürmüşlər və 1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. Bu da gənc dövlətin siyasi sisteminin yaradılması demək idi. Çünki o günə qədər Azərbaycanda siyasi sistem yox idi, siyasi münasibətlər, ümumiyyətlə, mövcud deyildi. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Bakıya gəlmişdir. Ovaxtkı AXC-Müsavat hakimiyyəti yenə də qorxaqlıq göstərərək kənara çəkilmiş, ölkə, demək olar ki, idarəolunmaz vəziyyətə düşmüşdü. O ağır, çətin vəziyyətdə xalq bu tarixi missiyanı Heydər Əliyevə həvalə etmişdir.

1993-cü ildən başlayaraq Azərbaycan bu günə qədər uğurlu inkişaf yolu ilə gedir. Baxmayaraq, 1994-cü və 1995-ci illərdə iki dəfə dövlət çevrilişinə cəhd göstərilmişdir, ancaq Azərbaycan xalqı imkan vermədi ki, cinayətkar ünsürlər hakimiyyəti bir daha qanunsuz zəbt etsinlər. Əlbəttə ki, Heydər Əliyevin nüfuzu, onun cəsarəti, onun siyasəti imkan vermədi ki, kimsə hakimiyyəti qanunsuz yollarla zəbt etsin.

Ondan sonra Azərbaycanda sabitlik dövrü başlamışdır və bu dövr bu gün də davam edir. Ölkəmiz üçün çox önəmli qərarlar qəbul edilmişdir, siyasi islahatlara start verilmişdir. Məhz o illərdə bizim inkişafımızla bağlı strateji seçimlər edilmişdir ki, Azərbaycan müasir, demokratik ölkə kimi inkişaf etməlidir. İqtisadi islahatlara start verilmiş, bazar iqtisadiyyatı prinsipləri əsas prinsiplər kimi tətbiq olunmağa başlamışdır. Azərbaycan beynəlxalq aləmlə münasibətləri qura bilmişdir və demək olar ki, müstəqilliyimizin ilk illərində mövcud olan beynəlxalq təcriddən də çıxa bilmişdir. Ölkəmiz üçün lazım olan beynəlxalq əlaqələr Azərbaycana investisiya cəlb edilməsinə gətirib çıxarmışdır. 1994-cü ildə "Əsrin kontraktı" imzalanmışdır. Bu kontraktın bizim tariximizdə, iqtisadi inkişafımızda müstəsna rolu vardır. 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edilmişdir. Eyni zamanda, 20 Yanvar faciəsinə siyasi və hüquqi qiymət verilmişdir. Əfsuslar olsun ki, ondan əvvəlki hakimiyyət bu məsələyə biganə qalmışdır. Azərbaycan uğurla inkişaf etməyə başlamışdır. 1993-2003-cü illərdə ölkə qarşısında duran vəzifələr uğurla icra edilmişdir. Ordu quruculuğu işində böyük addımlar atılmışdır, uğurlu Horadiz əməliyyatı keçirilmişdir və torpaqlarımızın bir hissəsi işğalçılardan azad edilmişdir. Yəni, 10 il ərzində Azərbaycanda dövlət quruculuğu işində çox böyük addımlar atılmışdır və bu addımlar bu gün bizim uğurlu siyasətimizi şərtləndirir.

2003-cü ilin oktyabr ayında Heydər Əliyev xalqa müraciətində görülmüş işlərlə bağlı öz fikirlərini bildirmiş və əminliyini ifadə etmişdir ki, onun davamçıları onun yolu ilə gedərək, Azərbaycanı ondan sonra da uğurla idarə edə bilərlər.

2003-cü ildə Azərbaycan xalqı mənə böyük etimad göstərmişdir və o gündən bu günə qədər çalışıram ki, bu etimadı doğruldum. 2003-cü ildə Prezident seçkiləri ərəfəsində söz vermişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasəti Azərbaycanda davam etdiriləcəkdir. Fəxr edirəm ki, sözümə əməl etdim və son 15 il ərzində Azərbaycan Heydər Əliyevin qoyduğu yolla uğurla, inamla gedir. Azərbaycanda sabitlik tam təmin olunur, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Biz indi görürük ki, dünyanın müxtəlif yerlərində vəziyyət gərginləşir, yeni münaqişələr, qanlı toqquşmalar, vətəndaş müharibələri, çevrilişlər baş verir. Ona görə baş verir ki, insanlar hakimiyyətdən narazıdırlar. Ona görə baş verir ki, hakimiyyət lazım olan səviyyədə, düzgün siyasət aparmır, insanları narahat edən problemləri həll etmir, iqtisadi inkişafı təmin edə bilmir, böyük pozuntulara yol verir. Azərbaycanda isə sabitliyin təminatçısı, onun qarantı Azərbaycan xalqıdır və xalq-iqtidar birliyidir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit və ən uğurla inkişaf edən ölkələrdən biridir.

Azərbaycan dövləti möhkəm əsaslar üzərində qurulubdur. Biz son 15 il ərzində milli dəyərlərimizlə bağlı çox ciddi siyasət aparırıq. Bizim milli dəyərlərimiz, ənənəvi dəyərlər bizim üçün əsasdır. Çox şadam ki, bu gün gənc nəsil milli ruhda tərbiyə olunur və milli ləyaqət hissləri güclənir, müstəqillik ən böyük sərvət kimi cəmiyyət tərəfindən qəbul edilir və dəstəklənir.

Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində nümunəvi ölkəyə çevrilibdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri Azərbaycan səması altında bir ailə kimi, sülh, mehribanlıq, dostluq şəraitində yaşayırlar. Bu, bizim böyük sərvətimizdir və bu, bizim siyasətimizin böyük uğurudur.

Azərbaycan beynəlxalq aləmdə böyük nüfuza malik olan bir ölkədir. Bizim bir çox ölkələrlə bərabərhüquqlu, gözəl, konstruktiv münasibətlərimiz vardır. Biz prinsipial mövqeyimizdən heç vaxt bir addım geri atmırıq. Tərəfdaşlarımızla qarşılıqlı maraqlar üzərində qurduğumuz münasibətlər, düzgün xarici siyasət bizə imkan verir ki, həm beynəlxalq arenada öz gücümüzü, təsir imkanlarımızı artıraq, eyni zamanda, daxili problemləri, xüsusilə iqtisadi inkişafla bağlı olan problemləri həll edək.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. 2003-2018-ci illərdə - 15 il ərzində bir çox beynəlxalq təşkilatlar - BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar bu münaqişə ilə bağlı bizim mövqeyimizi, ədaləti əks etdirən qərar və qətnamələr qəbul etmişlər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmalıdır, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır. Münaqişənin digər həlli yolları yoxdur. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, heç vaxt olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycan xalqı və dövləti heç vaxt imkan verməz ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Əgər kimsə başqa cür fikirləşirsə, hesab edirəm ki, o, əbəs yerə illüziyalarla yaşayır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə və qeyd-şərtsiz təmin edilməlidir. Bunu ədalət və beynəlxalq hüquq tələb edir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bunu tarix deyir, mədəniyyət deyir, bunu beynəlxalq hüquq deyir. Dağlıq Qarabağda keçirilmiş son qondarma "referendum" heç bir ölkə, heç bir beynəlxalq təşkilat tərəfindən tanınmayıb. Bu, bir daha onu göstərir ki, beynəlxalq aləm, bütün ölkələr Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz öz prinsipial mövqeyimizi bundan sonra da gücləndirəcəyik. Azərbaycanın həm beynəlxalq müstəvidə, həm də regionda kifayət qədər imkanları var. Bizim iştirakımız olmadan bölgədə heç bir layihə icra edilə bilməz. Ermənistanda bu reallığı nə qədər tez başa düşsələr, münaqişə o qədər də tez həll edilər və bölgəmizdə sülh təmin olunar.

Biz, eyni zamanda, Xocalı soyqırımı ilə bağlı dünyada çox böyük işlər görürük. Ermənilər tərəfindən törədilmiş misli görünməmiş vəhşilik olan Xocalı soyqırımını son illər ərzində 10-dan çox ölkə soyqırımı kimi tanıyıb və bu proses davam etdiriləcəkdir.

Biz güclü ordu qurmuşuq. Orduların gücünü müəyyən edən aparıcı reytinq agentlikləri Azərbaycan Ordusunu 50 güclü ordu sırasında görürlər. Biz bunu bilirik və bizim hərbi gücümüz gündəngünə artır. İki il bundan əvvəl Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etmişdir və o torpaqlarda - bizim doğma torpaqlarımızda bu gün Azərbaycan bayrağı dalğalanır. Əminəm ki, gün gələcək və Azərbaycan bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda, o cümlədən Şuşada və Xankəndidə qaldırılacaqdır.

Biz Ulu Öndərin yolu ilə gedərək güclü iqtisadiyyat qura bilmişik. Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. Bizim iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Aparıcı beynəlxalq təşkilatlar, Davos İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyinə görə dünyada 35-ci yerə layiq görübdür, inkişaf edən ölkələr arasında isə biz 3-cü yerdəyik. Bizim çox böyük iqtisadi resurslarımız var. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 5 dəfə böyükdür. Azərbaycanda yoxsulluqla, işsizliklə mübarizə gözəl nəticələr verir. Bu böyük sosial problemlərin həlli işində böyük uğurlar əldə edilibdir. Biz energetika, nəqliyyat sahələrində tarixi layihələr icra etmişik və onların icrası davam edir. Biz ölkə daxilində enerji təhlükəsizliyi ilə bağlı məsələləri tam şəkildə həll etdik. Gələcəkdə Azərbaycanın enerji resurslarının dünya bazarlarına çıxarılması ilə bağlı böyük layihələrin başa çatması gözlənilir.

Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilibdir. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri bizim böyük sərmayələrimizlə həyata keçirilir və bu istiqamətdə hələ də həllini tapmamış məsələlər mütləq öz həllini tapacaqdır.

Biz bütün istiqamətlərdə uğurla inkişaf edirik. Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, biz tutduğumuz yoldan dönməyəcəyik, daim irəli gedəcəyik.

Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, biz bundan sonra da həmişə inkişaf və tərəqqi yolu ilə gedəcəyik. Sağ olun.

# Tarixi şəxsiyyət tarixlər yaratdı



*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibəti ilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı hərbi təhsil müəssisələri, mərkəzi və qarnizon zabitlər evlərində silsilə tədbirlər keçirildi. Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, şəxsi heyət Heydər Əliyev mərkəzlərini, muzeyləri və abidələri ziyarət etdi.*

*Keçirilən tədbirlərdə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü günüdür. Artıq 15-ci ildir ki, qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibəti ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti də Fəxri xiyabanı ziyarət ediblər.

Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyublar, xatirəsini hörmət və ehtiramla yad ediblər.

* * *

Ölkəmizin hər yerində olduğu kimi, Gəncə Qarnizonu Zabitlər Evində də görkəmli dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş anım mərasimi keçirildi.

Gəncə Qarnizonu hərbi prokuroru, ədliyyə polkovniki Əmrah Mehdiyev, polkovnik-leytenant Rasim Manafov və başqaları ulu öndər Heydər Əliyevin geniş, çoxşaxəli fəaliyyəti, zəngin dövlətçilik təcrübəsindən və Vətənimiz, xalqımız qarşısında misilsiz, əvəzsiz xidmətlərindən danışdılar. Bildirdilər ki, azadlığımızın, müstəqilliyimizin qorunması dahi rəhbər Heydər Əliyevin adı ilə bağlıdır.

Böyük qayıdış xalqımızı, Vətənimizi təhlükələrdən xilas etdi. Düşmənlə atəşkəsə nail olundu. Bundan sonra ölkəmiz vəziyyətdən xilas edildi. Azərbaycanda hüquqi demokratik dövlətin qurulması bütün dünyaya bəyan edildi. Hüquqi demokratik islahatların keçirilməsi, qanunçuluğun təmin edilməsi, yeni konstitusiyanın qəbul edilməsi tariximizin parlaq səhifələrini təşkil etdi. Azərbaycan regionun iqtisadi, siyasi, hərbi cəhətdən inkişaf edən ölkəsinə çevrildi.

Dövlətçiliyin, müstəqilliyin qarantı olan Azərbaycan Ordusu müasir tələblər səviyyəsində yenidən quruldu. Ulu Öndərin başladığı böyük quruculuq işləri onun layiqli varisi, Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qürurla demək olar ki, ölkəmiz dayanıqlı, qüdrətli inkişafa malikdir. Sürətli inkişaf ölkə həyatının bütün sahələrini əhatə edir. Son illər ordu quruculuğu sahəsində də böyük uğurlara imza atılmışdır. Qətiyyətlə demək olar ki, Azərbaycan Ordusu işğal altında olan Vətən torpaqlarını düşmənlərdən azad etməyə qadirdir.

Sonda Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirildi.

* * *

Mayın 10-da "N" hərbi hissəsində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş tədbir keçirildi.

1-ci dərəcəli kapitan Natiq Bağırov çıxışında dedi: "Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Bu dahi insan xalqımızın yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider kimi qalmışdır. Ulu öndər Heydər Əliyev ölkə həyatının bütün sahələrində inkişaf və tərəqqinin banisi və ilhamçısı olmuşdur. Xüsusilə Ümummilli Liderin ordu quruculuğu sahəsində fəaliyyətinin nəticələri dövlətimizin bugünkü etibarlı təhlükəsizliyinin təmin olunmasında müstəsna rol oynamışdır. Təsadüfi deyildir ki, ölkəmizin nə zamansa müstəqillik yoluna qədəm qoyacağını öncədən görən Ulu Öndər Azərbaycan hərb sənətinin yenidən dirçəldilməsi və yüksək ixtisaslı milli zabit kadrların hazırlanması üçün əlindən gələni əsirgəməmişdir. Çox əlamətdar haldır ki, bütün həyatını xalqına, onun xoşbəxt gələcəyinin qurulması naminə sərf edən Heydər Əliyev Azərbaycanın qüdrətli hərbi qüvvələrinin təşkili üçün də əlindən gələni əsirgəməyərək daim orduya, hərbi kadrlara böyük diqqət yetirirdi. Bu gün təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etdirilir".

Tədbir ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən qısametrajlı filmin nümayişi ilə sona çatdı.

* * *

Mayın 10-da Azərbaycan Hərb Tarixi Muzeyində də ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev: dahi xilaskar və dövlət qurucusu" adlı tədbir keçirilib.

Tədbiri açıq elan edən Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "Heydər Əliyev və Ordu quruculuğu" adlı çıxışında XX əsr Azərbaycan tarixinin ən parlaq siması olan ümummilli lider Heydər Əliyevin dövlət idarəçiliyi sahəsində təcrübəli siyasət adamı və əvəzolunmaz şəxsiyyət olmasından, son dərəcə zəngin və çoxşaxəli tarixi fəaliyyətinin istiqamətlərindən danışıb.



Tədbirdə Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Emin Səfərov Ulu Öndərin ordu quruculuğunda gördüyü işlərdən, hərbi gücün artırılması üçün yeni texnika və silahlar alaraq ölkənin hərbi qüdrətinin inkişafından, yeni-yeni hərbi məktəblərin açılmasından və Ulu Öndər tərəfindən əsası qoyulan Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə dünyanın ən qabaqcıl Orduları sırasında olmasından danışıb.



Muzeyin baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılov "Heydər Əliyev çağdaş Azərbaycan dövlətçiliyinin banisidir" adlı məruzə ilə çıxış edib.

Sonda Ulu Öndərə həsr olunmuş sənədli film nümayiş olunub.

* * *

Mayın 10-da Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Müdafiə Nazirliyinin Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş tədbir keçirildi.

Tədbirdə çıxış edən polkovnik-leytenant Zöhrab İmamquliyev iradəsinə həsəd aparılacaq dahi şəxsiyyətin misilsiz xidmətlərindən danışdı. "Azərbaycanı mədəni və iqtisadi tənəzzül dövründən ayağa qaldıran, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrünə çatdıran ulu öndər Heydər Əliyevin ölkəmiz üçün misilsiz xidmətləri var. Müqəddəs kitabımızda deyilir: "Bir nəfər xalq ola bilər". Bu kəlam hamımızın şahidliyi ilə həyatda öz təsdiqini tapdı: ulu öndərimiz Heydər Əliyev ən çətin vaxtda, onu qalib edəcək ən doğru addımı atdı. O addım ən müdrik, ən dəqiq və vaxtında atılan addım idi. Çoxlarının ümidini itirdiyi bir vaxtda Böyük Yaradan tərəfindən ona bəxş edilən müqəddəs ruhu və iradəsilə xalqın qarşısına çıxdı, çətin və məsuliyyətli missiyanı təkbaşına çiyinləri üzərinə götürdü. Azərbaycanı məhvdən xilas edib bugünkü dünya rəqabətinə qadir olan bir səviyyəyə çatmasına zəmin yaratdı. Əbədi yaşayacaq tariximizdə əbədi iz qoydu. Budur həqiqət, budur reallıq!"

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin təqdim etdiyi zəriflik, incəlik, eyni zamanda qəhrəmanlıq, mərdlik notları ilə zəngin olan Azərbaycan mahnıları və rəqsləri zalda əyləşənlərin böyük diqqətinə səbəb oldu.

Tədbir müdrik siyasətçi Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş filmin nümayişi ilə yekunlaşdı.

**(Ardı 5-ci səhifədə)**

# Tarixi şəxsiyyət tarixlər yaratdı

(Əvvəli 4-cü səhifədə



Xalqımızın ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyi Murovdağın zirvəsində də təntənəli surətdə qeyd edilib. 1994-cü ilin yanvarında Ulu Öndərin xeyir-duası ilə cəbhəyə yola salınmış hərbi hissənin ön səngərdə döyüş növbəsi çəkən hərbi qulluqçuları müasir Azərbaycan Ordusunun memarını ehtiramla yad ediblər.

Hərbi hissənin ilk döyüşçülərindən olan Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin əməkdaşı polkovnik Abdulla Qurbani Heydər Əliyevlə bağlı xatirələrini danışıb, hərbi hissənin keçdiyi döyüş yolu barədə ətraflı məlumat verib.

A.Qurbani bildirib ki, 95 illik yubileyi nəinki ölkəmizdə, eləcə də Vətənimizin hüdudlarından uzaqlarda silsilə tədbirlərlə qeyd edilən Ulu Öndərimiz elə böyük şəxsiyyət, elə bir görkəmli dövlət xadimi, siyasi rəhbər, qüdrətli sərkərdədir ki, yüz illər, min illər ötsə belə, yenə də qədirbilən xalqımızın yaddaşında əbədi yaşayacaqdır. "Heydər Əliyev Vətənə, xalqa, dövlətə necə sədaqətlə xidmət etməyin simvoludur və nə qədər ki, Azərbaycan var, Azərbaycan xalqı var, o böyük dahi xatırlanacaqdır. Respublikamızın 30 ildən çox bir dövrünün inkişafı



onun adı ilə bağlıdır. Heydər Əliyev ideyaları yaşayır, Heydər Əliyev siyasəti uğurla davam etdirilir. Müasir Azərbaycanımızın sükanı bu gün etibarlı əldədir və xalqımız Ümummilli Liderimizin özü qədər inandığı, gələcəyinə böyük ümidlər bəslədiyi möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında daha parlaq gələcəyə doğru inamla irəliləyir", - deyə A.Qurbani qeyd edib.

Bildirilib ki, 1993-cü ilin sonu və 1994-cü ilin əvvəllərində həyata keçirilən uğurlu "Horadiz əməliyyatı"ndan sonra Ulu Öndər yeni formalaşan hərbi hissəni yola salmaq üçün şəxsən Bakıətrafı rayonlardan birinə gələrək şəxsi heyətlə görüşüb, onların qarşısında geniş nitq söyləyib və xeyir-dua verərək Vətən əsgərlərini cəbhəyə yola salıb. Hərbi hissənin döyüşçüləri Füzuli, Cəbrayıl rayonları uğrunda gedən döyüşlərdə və Murovdağda qəhrəmanlıq nümunələri, dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında isə əsl vətənpərvərlik nümayiş etdiriblər.

Hərbi hissənin şəxsi heyəti əbədiyaşar Ali Baş Komandanımızın 24 il öncə dediyi sözləri bu gün də unutmurlar: "Bilin ki, hər biriniz doğma Vətənimizi, öz ananızı, atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün ordu sıralarına gəlmisiniz. Bilin ki, sizin arxanızda böyük Azərbaycan xalqı, Azərbaycan dövləti durub. Bilin ki, ümumi qələbəmiz sizin hər birinizin qəhrəmanlığından asılıdır. Hər birinizə uğurlar arzulayıram!".

Həqiqətən də, Ulu Öndərin xeyir-duası ilə cəbhəyə yola salınan hərbi hissənin şəxsi heyəti ümidləri doğrultdu. Neçə-neçə döyüşçü göstərdiyi igidlik və şücaətə görə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına, döyüş orden və medallarına layiq görüldü.

Hərbi hissənin zabiti polkovnik-leytenant Rasim Manafov Heydər Əliyevin Azərbaycanın ordu quruculuğundakı müstəsna xidmətlərindən bəhs edərək vurğulayıb ki, respublikamızda mütəşəkkil ordunu yaratmaq Ulu Öndərin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindəndir. Ötən əsrin 70-ci illərində, totalitar Sovet rejiminin sərt məngənəsində Heydər Əliyev uzaqgörənliklə gələcəkdə Azərbaycanın müstəqilliyini bərpa edəcəyini düşünərək indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaradıb. Həmin liseyin yetirmələri olmasaydı, bugünkü qüdrətli ordumuz haqqında danışmaq da əsla mümkün deyildi. İndi bütün qoşun növlərində xalqımızın haqlı olaraq "Heydər Əliyev məktəbi" adlandırdığı bu tədris ocağının yetirmələri yüzlərlə, minlərlədir.

Naxçıvandakı Heydər Əliyev adına Hərbi Liseyin ilk buraxılışının məzunu olan mayor Şahnəzər Bağırov hələ kursant olarkən Ulu Öndərlə görüşdüyünü, o böyük sərkərdədən xeyir-dua aldığını xatırlayıb və bundan sonra da Heydər Əliyev ideyalarına sadiq qalaraq tabeliyində olan şəxsi heyətlə birlikdə qarşıya qoyulmuş bütün əmr və göstərişləri layiqincə yerinə yetirəcəklərinə söz verib.

Vaxtilə Milli Qvardiyada əsgər olmuş və bu gün Murovdağda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edən baş çavuş Zaur Həbilov Azərbaycanın Milli Qəhrəmanı mayor Əfqan Hüseynovun abidəsinin açılışı mərasimində iştirak etdiyi zaman Heydər Əliyevin nitqini dinlədiyini həyatının unudulmaz xatirəsi kimi yada salıb.

Ata-baba yurdları düşmən tapdağında olan ağdamlı və laçınlı əsgərlər Rəşad Qasımov və Hikmət Salmanov, eləcə də çıxış edən hərbi qulluqçular Əflatun Məsimov və Pərviz Məmmədov aprel zəfərini təkrarlamaq, Ulu Öndərin ruhunu şad etmək üçün döyüşə hazır olduqlarını bildiriblər.

Sonda Heydər Əliyev haqqında şeirlər söylənib, Ulu Öndərin qələbəyə çağıran kəlamları səsləndirilib.

* * *

Ulu Öndərin 95 illiyi ərəfəsində Cəmşid Naxçıvanski adına Hərbi Liseyin zabit, gizir və kursantları Yasamal rayonundakı Heydər Əliyev Mərkəzini ziyarət etdilər. Burada onları mərkəzin nümayəndəsi Azər Zeynalzadə qarşıladı. Sonra Heydər Əliyev Mərkəzinin yaranması haqqında zabit, gizir və kursantlara ətraflı məlumat verdi.

Ulu Öndərin şərəfli ömür yolu və siyasi fəaliyyəti haqqında qısaca məlumat aldıqdan sonra zabit, gizir və kursantlar ümummilli liderimiz Heydər Əliyevin Mərkəzdəki əzəmətli heykəli önünə gül-çiçək dəstələri qoydular. Bələdçilər Günel Paşayeva və Mayrux Hüseynova ziyarətə gələnlərə ulu öndər Heydər Əliyevin keçdiyi həyat yolundan ətraflı danışdılar.

Heydər Əliyev Mərkəzinin eksponatları zəngin olduğundan bələdçilər Ümummilli Liderimiz haqqında ziyarətə gələnlərə geniş məlumat verdilər. Ziyarətçilər daim xalqımızın ürəyində yaşayan Ulu Öndərin ömür yolunu, gördüyü tarixi işləri böyük həvəs və maraqla dinləyirdilər. Kursantlar xalqın sevimli oğlu Heydər Əliyevin həyat yolunu daha da dərindən öyrənmək üçün tez-tez bələdçilərə suallar ünvanlayırdılar. Öz işlərinin peşəkarları olan bələdçilər isə kursantların suallarına əhatəli cavab verir, ulu öndər Heydər Əliyevin ömür yolundan daha da geniş söhbət açırdılar.



Mərkəzə böyük həvəslə gələn zabit, gizir və kursantlar nümayiş olunan eksponatlara dərin maraqla baxırdılar. Onlar qısa vaxt ərzində ümummilli lider Heydər Əliyevin keçdiyi ömür yolu ilə, müstəqil dövlətçiliyimizin qurulması naminə həyata keçirdiyi uğurlu islahatlarla yaxından tanış oldular. Nümayiş olunan fotolarda Ulu Öndərin ömrünün müxtəlif anları yaşayırdı.

Nümayiş olunan dəyərli və qiymətli eksponatlarla tanışlıqdan sonra Mərkəzin nümayəndələri geniş zalda ulu öndər Heydər Əliyevin həyatının müxtəlif anlarını əks etdirən sənədli film nümayiş etdirdilər. Sabahımızın zabitləri olacaq kursantlar filmə böyük maraqla baxdılar. Ulu Öndərin ölkəmiz və xalqımız üçün gördüyü işlərlə, dinamik inkişafımızı təmin edən uğurlu islahatlarla yaxından tanış oldular. Bu tanışlıq onların Əbədiyaşar Ali Baş Komandana olan rəğbətlərini, sevgisini daha da artırdı.

Ulu öndər Heydər Əliyev Mərkəzini ziyarət etdikdən sonra kursantlarla görüşüb söhbət etdim. Onlar mərkəzdə gördükləri ilə bağlı təəssüratlarını bizimlə bölüşdülər. Kursant İlham Babazadə dedi ki, bu gün mənim üçün çox əlamətdar oldu. "Ulu öndər Heydər Əliyevin yaşadığı şərəfli ömür yolunu daha da dərindən öyrəndim. Ümummilli liderimiz Heydər Əliyevin xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaq. Ulu Öndərin dövlət quruculuğu, ordu quruculuğu, iqtisadi islahatlar, milli şüurun dirçəlişi, ideologiyamızın inkişafı və formalaşması, gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsi və digər sahələrdəki siyasi irsi bu gün dərindən öyrənilməli və təbliğ olunmalıdır. XX əsrin ən böyük dühalarından olan görkəmli dövlət xadimi, nadir şəxsiyyət, xalqımızın xilaskar oğlu, ümummilli liderimiz Heydər Əliyevin həyat yolu və siyasi fəaliyyəti hər bir Azərbaycan vətəndaşı, zabiti, kursantı, əsgəri üçün örnək və nümunə məktəbidir. Biz bu məktəbdən xalqa, dövlətə necə xidmət etməyin lazım olduğunu öyrənməliyik."

Kursantlardan Məmməd Məmmədli, İsaq Tağıyev, Hacıağa Əsgərli və başqaları Heydər Əliyev Mərkəzini ziyarətdən məmnun olduqlarını, Ulu Öndərin həyat yolunu və siyasi fəaliyyətini daha da dərindən öyrəndiklərini bildirdilər.

Zabit, gizir və kursantlar Heydər Əliyev Mərkəzini ziyarət etməkdən çox məmnun qaldılar. Ümid edirəm ki, onlar bu günü, bu anları heç vaxt yaddan çıxarmayacaqlar.

**"Azərbaycan Ordusu"**

# Prezident İlham Əliyev 9 May Qələbə Günü münasibəti ilə Bakıda keçirilən mərasimdə iştirak edib

*İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.*



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. İkinci Dünya müharibəsində keçmiş SSRİ-nin qazandığı tarixi Qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 700 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 123 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddəüç hissəsi, aviasiya benzini və yüksək keyfiyyətli motor yağlarının 85-90 faizi Azərbaycanın payına düşüb.

Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarus, Pribaltika cəbhələrində cəsarətlə vuruşublar. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci milli diviziyalar Simferopolun, Odessanın, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya isə Yuqoslaviyanın azadlığı uğrunda fəal iştirak ediblər.

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir. Bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsidir. Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi. Ümummilli Lider onları "Xalqımızın qızıl fondu" adlandırırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həlli istiqamətində daim mühüm addımlar atır. 9 May Qələbə bayramı ərəfəsində onlara birdəfəlik maddi yardımlar göstərilir. Bu isə həmin kateqoriyadan olan insanların sosial vəziyyətinin daim diqqət mərkəzində olduğunu nümayiş etdirir.

İkinci Dünya müharibəsinin veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 73 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

Prezident, Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin qarşısından keçdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə günü münasibətilə onları təbrik etdilər.

Mərasimdə Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

# Azərbaycan Respublikasının Müdafiə naziri İzmir şəhərində keçirilən "Efes-2018" beynəlxalq təlimlərinin yekun mərhələsində iştirak edib



*İzmir şəhərində keçirilən "Efes-2018" beynəlxalq təlimlərinin yekun mərhələsini izləmək məqsədilə Türkiyə Respublikasında səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov mayın 9-da təlimlərdə iştirak edən Azərbaycan hərbçiləri ilə görüşüb.*

Təlimlərdə uğur qazanmış heyəti təbrik edən Müdafiə naziri hərbçilərimizin beynəlxalq tədbirdə göstərdikləri peşəkarlığı yüksək qiymətləndirərək onları mükafatlandırıb.

Qeyd edək ki, aprelin 11-də başlayan "Efes-2018" təlimlərində Azərbaycan Ordusu 100 nəfərdən artıq şəxsi heyətlə təmsil olunur.

* * *

İzmir şəhərində keçirilən "Efes-2018" beynəlxalq təlimlərinin mayın 9-da "Doğanbey" poliqonunda gecə mərhələsi baş tutub.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi geniş tərkibdə nümayəndə heyəti əvvəlcə Türkiyə müdafiə sənayesi sərgisini ziyarət edərək hərbi texnikaları müasir silah və döyüş texnikaları nümunələri ilə tanış olublar.

Sonra Azərbaycan nümayəndə heyəti yüksək səviyyəli müşahidəçilərlə birgə təlimin gecə saatlarında keçirilən mərhələsini izləyib.

* * *

Türkiyədə səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov mayın 10-da İzmir şəhərində keçirilən "Efes-2018" beynəlxalq təlimlərinin yekun mərhələsində iştirak edib.

Azərbaycan nümayəndə heyəti yüksək səviyyəli müşahidəçilərlə birgə "Doğanbey" poliqonunda yaradılmış Təlim İdarəetmə Mərkəzini ziyarət edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun xatirəsi yad edilib

*Müdafiə nazirinin tapşırığına əsasən, mayın 8-də Müdafiə nazirinin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyevin rəhbərliyi ilə nazirliyin bir qrup əməkdaşı Şəhidlər xiyabanında dəfn olunmuş Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun məzarını ziyarət edib.*



Ölkəmizin ərazi bütövlüyü və torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra çıxış edənlər A.Aqarunovun şərəfli həyat yolu, onun döyüşlərdə iştirakını bir daha xatırlayıblar. Bildirilib ki, ölkəmizdə yaşayan digər xalqların nümayəndələri kimi yəhudi əsilli bu qəhrəman da Azərbaycanı öz Vətəni bilmiş, canını onun müstəqilliyi və suverenliyi uğrunda fəda etmişdir.

Qeyd edək ki, Dağlıq Qarabağda döyüşlər başlayarkən A.Aqarunov cəbhəyə yollanıb və 1992-ci il mayın 8-də Şuşanın müdafiəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Qələbənin 73-cü ildönümü münasibəti ilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirildi

*Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibəti ilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı hərbi təhsil müəssisələri, mərkəzi və qarnizon zabitlər evlərində silsilə tədbirlər keçirildi. Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, şəxsi heyət tərəfindən Böyük Vətən müharibəsi illərində həlak olan həmvətənlərimizin xatirəsinə ucaldılan abidələr ziyarət edildi, müharibə veteranları ilə görüşlər keçirildi, onların qəhrəmanlıqları haqqında filmlər göstərildi və digər mədəni-kütləvi tədbirlər təşkil olundu.*

*Tədbirlər ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin, İkinci Dünya müharibəsində həlak olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*



Mayın 9-da Müdafiə Nazirliyinin bir qrup şəxsi heyəti Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibəti ilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun abidəsini ziyarət etdi, önünə əklil qoydu. Hərbi qulluqçular İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş xalqımızın igid oğullarının əziz xatirəsini dərin ehtiramla yad etdilər.

* * *

Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin Yasamal rayonu Abbasqulu ağa Bakıxanov küçəsində yerləşən abidəsi önündə Qələbənin 73-cü ildönümü ilə bağlı təntənəli tədbir keçirildi. Tədbirə olan marağın yüksək səviyyədə olmasının təzahürü idi ki, kiçikdən-böyüyə hamı Mixaylonun büstü önünə gül çələngləri düzür, xatirə şəkilləri çəkdirirdilər.

Yasamal rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov Qarovulun heyət nəfərlərinin müşayiəti ilə gül çələngini abidənin qarşısına qoyduqdan sonra tədbir açıq elan edildi.

Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, müharibə veteranları, orta məktəb şagirdləri və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları iştirak edirdilər. Polkovnik Həbib Məmmədov tədbirdə iştirak edən kursantlara xitabən söylədi ki, köhnə Sovetlər birliyinin faşizm üzərində qələbə qazanmasında Vətənimizin igid oğullarının rolu əvəzolunmazdır: "İkinci Dünya müharibəsi bizə yüz minlərlə qəhrəman oğullar qazandırdı. Onlar bu dünyadan cismən köçsələr də, ruhən qəlblərimizdə yaşayırlar. Gələcəyin gənc zabitləri kimi sizin üzərinizə düşən əsas vəzifələrdən biri də torpaqlarımızın bütövlüyü uğrunda canından keçən qəhrəmanlarımızı tanımaq və gələcəkdə tabeçiliyinizdə olacaq şəxsi heyətə tanıtmaqdır."

Polkovnik Mikayıl Hüseynov tədbir iştirakçıları qarşısında çıxışında qeyd etdi: "İkinci Dünya müharibəsində həlak olan hər bir həmyerlimizin ruhu bizim üçün doğma və əzizdir. Bu döyüşlər bizə minlərlə qəhrəman oğullar bəxş etdi. Onlar ömürlərinin bahar çağında Vətən uğrunda döyüşlərdə qələbə naminə canlarından keçdilər. Hər bir gəncimizin gələcəkdə qələbə naminə ata-babaları kimi rəşadətlə döyüşəcəyinə inanırıq".

Tədbir abidənin qarşısında xatirə şəklinin çəkilməsi ilə yekunlaşdı.

* * *

Mayın 9-da Sovet İttifaqı Qəhrəmanı Rixard Zorgenin abidəsi önündə faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibəti ilə tədbir keçirildi. Mərasimdə Müdafiə Nazirliyinin, Nəsimi rayon İcra Hakimiyyətinin, məktəb şagirdlərinin nümayəndələri iştirak etdilər.

Polkovnik Rauf İsmayılov çıxış edərək Qələbə günü münasibəti ilə tədbir iştirakçılarını təbrik etdi. Zabit Böyük Vətən müharibəsi illərindən danışaraq qeyd etdi ki, Azərbaycan İkinci Dünya müharibəsində Qələbənin qazanılmasına böyük töhfə verib. "Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə çox böyük qəhrəmanlıq və şücaət nümunələri göstərib. Azərbaycanın yüz minlərdən çox igid oğlu və qızı cəbhəyə yollanmışdı. Azərbaycan diviziyaları Qafqazdan Berlinə qədər şərəfli döyüş yolu keçmişdir. Həmvətənlərimizin təqribən 100-dən çoxu Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 30 nəfəri "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilmişdir. Azərbaycandan olan yüz minlərlə əsgər və zabit SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunmuşdur. Arxa cəbhədə də böyük şücaət göstərən Azərbaycan xalqı həm neft, həm də digər təsərrüfat məhsulları ilə cəbhəni təchiz edirdi".

Tədbir Rixard Zorgenin abidəsi önünə əklil və gül dəstələrinin qoyulması ilə başa çatdı.

* * *

Müdafiə Nazirliyinin və Azərbaycan Respublikası Veteranlar Təşkilatının təşkilatçılığı ilə İkinci Dünya müharibəsi veteranları üçün təntənəli bayram tədbiri təşkil olundu. Tədbirdə İkinci Dünya müharibəsi veteranları, Müdafiə Nazirliyinin nümayəndələri, Respublika Veteranlar Təşkilatının əməkdaşları, ziyalılar və məktəblilər iştirak etdilər.

Azərbaycan Respublikası Veteranlar Təşkilatının sədri ehtiyatda olan general-polkovnik Tofiq Ağahüseynov tədbiri açıq elan etdi. Veteranları böyük Qələbə münasibəti ilə səmimi qəlbdən təbrik edən sədr Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin veteranlara olan yüksək münasibətindən söhbət açdı: "Müharibə veteranları hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Onların sosial müdafiəsinin gücləndirilməsi sahəsində hər il ölkə Prezidenti müxtəlif fərman və sərəncamlar imzalayır. Qələbənin 73-cü ildönümü ilə əlaqədar müharibə iştirakçılarına verilən birdəfəlik maddi yardım da bunun parlaq sübutudur."



Tofiq Ağahüseynov hər il veteranlara göstərilən diqqət və qayğıya görə Müdafiə Nazirliyinin rəhbərliyinə də minnətdarlığını bildirdi və İkinci Dünya müharibəsi veteranlarının belə qayğıkeşliyi yüksək qiymətləndirdiklərini qeyd etdi.

Təşkilatın sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov ölkə başçısının veteranlara qayğı göstərilməsi, problemlərinin daim diqqət mərkəzində saxlanması baxımından MDB məkanı üzrə fərqləndiyini vurğuladı. Son günlər İkinci Dünya müharibəsi veteranları ilə bir sıra silsilə görüşlərin keçirilməsinin sevindirici hal olduğunu bildirən Cəlil Xəlilov qeyd etdi ki, bu görüşlər veteranlar üçün xüsusi əhəmiyyət kəsb edir. "Xalqımız veteranları ilə hər zaman fəxr edir. Veteranlar hər zaman Azərbaycan Ordusunun yanındadır, onlar əsgər və zabitlərimizdə vətənpərvərlik hissinin artırılmasında daim əvəzsiz xidmət göstərirlər."



Müdafiə Nazirliyinin Mərkəzi Əşya Bazasının səyyar qrupunun gizirləri Vüsal Kərimov və Vüsal Mirzəyev tərəfindən hazırlanan yeməklər, Böyük Vətən müharibəsi dövrünün hərbi geyimində veteranlara qulluq göstərmələri onlara nostalji hisslər yaşadaraq Qələbə bayramının sevincinə əlavə rəng qatdı. Keçmişi xatırladan ab-hava veteranların ürəyincə oldu. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin hərbi orkestrinin ifasında səslənən müharibə, Vətən, qəhrəmanlıq, sevgi haqqında o illərin mahnıları veteranların bayram əhval-ruhiyyəsini daha da artırdı. Sonda veteranlara hədiyyələr təqdim olundu və xatirə şəkilləri çəkildi.

* * *

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibəti ilə İkinci Dünya müharibəsi veteranları ilə görüş keçirdi.

Tədbiri açıq elan edən komitə sədri Abiyat Ağadadaşova faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibəti ilə veteranları təbrik edərək ümummilli lider Heydər Əliyevin dediyi "Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğı və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur" kəlamını xatırlatdı. Bildirdi ki, o dövrdə elə bir ailə yox idi ki, müharibənin ağrı-acılarını yaşamasın. "Müharibə haqqında bir fikri xatırlayıram: "Müharibə analar üçün ən dəhşətli lənətdir". Mənim əmilərimdən biri müharibədə itkin düşüb, digəri Vətəndən uzaqlarda dəfn olunub. Atam müharibə qurtarandan xeyli sonra qayıdıb. Bəşər tarixinə ən dəhşətli və dağıdıcı müharibə kimi daxil olmuş Böyük Vətən müharibəsi əsrlər keçsə də xatırlanacaq, gələcək nəsillər bu qələbənin bəşəriyyət üçün misilsiz dəyərini dərk edəcəklər".

Komitə sədri Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevi həmin ənənələri davam etdirməsindən, veteranların daim diqqət mərkəzində olmalarından danışdı. Onlara möhkəm cansağlığı, gənc nəslin azərbaycançılıq, vətənpərvərlik ruhunda tərbiyəsində uğurlar, işğal olunmuş torpaqlarımızda üçrəngli Azərbaycan bayrağının dalğalanması gününün sevincini yaşamağı arzuladı.

İkinci Dünya müharibəsinin qəhrəmanlarından bəhs edən onlarla kitabın müəllifi, 1-ci dərəcəli kapitan Aleksandr Qritçenko müharibə başlayanda Hərbi Dəniz Donanmasında xidmətə başlamasından, müharibənin sonuna kimi keçdiyi döyüş yolundan söz açdı. Qara dəniz, Azov və Dunay hərbi donanmalarında dəniz piyadaları sırasında faşistlərə qarşı vuruşmasından, Rumıniyanın, Bolqarıstanın, Macarıstanın, Çexoslovakiyanın və başqa ölkələrin azad edilməsində iştirak etməsindən danışdı.

Veteranlar Şurasının Nəsimi rayon şöbəsinin sədri İsmayıl Fərəcov Qələbədən 73 il keçməsinə baxmayaraq, o günləri bir an belə unutmadığını, Vətən anlayışının milliyyətindən, dilindən, dinindən asılı olmayaraq hər bir insan üçün əziz və müqəddəs olduğunu vurğuladı. Ulu Öndər hakimiyyətə qayıtdıqdan sonra Böyük Vətən müharibəsi iştirakçılarına olan xüsusi hörmət və qayğıdan fəxrlə danışan natiq bildirdi ki, veteranlara olan diqqət və qayğı bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Müharibə veteranlarından Hilal İbrahimov, Rəsul Xəmmədov, Qalina Luxşina və başqaları onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildirdilər.

Sonda veteranlara qiymətli hədiyyələr təqdim olundu və xatirə şəkli çəkildi.

**"Azərbaycan Ordusu"**

# “Qələbə bayrağına düzlən!”

## Müdafiə Nazirliyinin təşkilatçılığı ilə hərbi vətənpərvərlik marafonu keçirilib



*Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü ilə əlaqədar Müdafiə Nazirliyinin təşkilatçılığı ilə "Qələbə bayrağına düzlən!" devizi altında hərbi vətənpərvərlik marafonu keçirilib.*

Layihənin müəllifi Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin əməkdaşı polkovnik Abdulla Qurbanidir. Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin şəxsi heyəti hərbi vətənpərvərlik marafonu çərçivəsində Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidə kompleksləri, qardaşlıq qəbiristanlıqlarını, memorial muzeyləri ziyarət edib, veteranlarla, müharibə qəhrəmanlarının ailə üzvləri ilə görüşüb, kütləvi təbliğat və təşviqat işi aparıblar.

Tədbirlərdə çıxış edən A.Qurbani bildirib ki, keçirilən belə tədbirlər şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik və düşmənə nifrət hissinin daha da yüksəldilməsində böyük əhəmiyyət kəsb edir. Vətən əsgərləri ata-babaların şanlı döyüş və zəfər yolunu dərindən öyrənməklə yanaşı, əcdadların qəhrəmanlıq ənənələrini şərəflə davam etdirəcəklərinə and içib, tezliklə xalqımıza Qarabağdan qələbə müjdəsi gətirəcəklərinə söz veriblər.

1945-ci ilin mayında Berlində Reyxstaq binası üzərinə sancılan Qələbə və Azərbaycan milli atıcı diviziyalarının döyüş bayraqlarının hazırlanmış surətini daşıyan hərbi qulluqçular Qazax şəhərinin mərkəzi küçəsi ilə irəliləyərək öncə Sovet İttifaqı Qəhrəmanı Müseyib Allahverdiyevin abidəsi önünə toplaşıb və qəhrəmanın xatirəsini ehtiramla yad ediblər.

Layihə rəhbəri marafon iştirakçılarının nəzərinə çatdırıb ki, Müseyib Allahverdiyev 1909-cu ildə Qazax rayonunda anadan olub. 1936-cı ildə hərbi-siyasi məktəb bitirib və müharibənin ilk günlərindən döyüşlərə atılıb. Tabor komandiri kimi Moskva ətrafında gedən döyüşlərdən başlayaraq Budapeştə qədər şərəfli döyüş yolu keçib. Onun komandiri olduğu tabor Dunay çayını keçərək Macarıstan ərazisində ağır döyüşlərdə əsl fədakarlıq göstərib. 1944-cü ilin dekabrın ilk günündə tabor düşmənin 500 döyüşçüsünü məhv edib, 2 min 200 nəfəri əsir götürüb, Budapeştin azad edilməsində isə xüsusilə fərqlənib. Müharibədə göstərdiyi şücaətə görə 1945-ci il martın 24-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən Müseyib Allahverdiyev müharibədən sonra Vətənə qayıdaraq ömrünün sonuna kimi xalqına sədaqətlə xidmət edib.

Qəhrəmanın oğlu Şamil Allahverdiyev atası haqqında xatirələrini danışıb. Atası 1969-cu ilin mayında dünyasını dəyişsə də, onun daim yad edildiyini, xatirəsinin əziz tutulduğunu minnətdarlıqla vurğulayıb. Haqqında kitabların yazıldığını, adının əbədiləşdirildiyini, abidəsinin ucaldıldığını deyən qəhrəmanın oğlu bu gün Azərbaycan əsgərinin ataların şanlı döyüş yolunu uğurla davam etdirdiklərindən fəxrlə danışıb. O, əminliklə ifadə edib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və digər rayonlarımız işğaldan azad ediləcək, ərazi bütövlüyümüz təmin olunacaq.



Əməkdar İncəsənət xadimi, Azərbaycan Yazıçılar Birliyinin Qazax bölgə filialının sədri, şair-publisist Barat Vüsal çıxış edərək 1941-1945-ci illər müharibəsində bütün xalqımız kimi, qazaxlıların da müsəlləh əsgər olduqlarını, həm ön, həm də arxa cəbhədə qələbə naminə böyük hünər göstərdiklərini qeyd edib.

Şairin vətənpərvərlik mövzusunda söylədiyi şeirləri əsgərlərdə böyük ruh yüksəkliyi yaradıb.

Sonra hərbi qulluqçular Ağstafa rayonunun Dağkəsəmən kəndinə gedərək qəhrəmanın məzarını ziyarət ediblər.

Məzar üzərində keçirilən xatirə mitinqində qəhrəmanın böyük oğlu, istefada olan polis general-mayoru Abdulla Allahverdiyev göstərilən diqqət və ehtirama görə Prezident İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

"Qələbə bayrağına düzlən!" marafonunun iştirakçıları Qazax rayonunun Yuxarı Daşsalahlı kəndində yenidən bərpa edilmiş Böyük Vətən müharibəsi qəhrəmanlarının xatirə kompleksini ziyarət ediblər. Burada böyük izdihama qoşulan marafon iştirakçıları rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov tərəfindən mükafatlandırılıblar.

Daha sonra marafon estafetini Tovuz rayonunun cəbhəyanı yaşayış məntəqəsi olan Ağdam kəndinin igid müdafiəçiləri qəbul ediblər. Burada Sovet İttifaqı qəhrəmanları Yusif Sadıxovun, Mərdan Musayevin və Məstan Əliyevin xatirəsinə həsr olunmuş tədbir keçirilib.

Qeyd olunub ki, Yusif Sadıxov Ağdam kəndində anadan olub. Böyük Vətən müharibəsi illərində artilleriya bölməsinin komandiri kimi Moskva şəhərinin müdafiəsində, Ukrayna və Belarusiyanın azad edilməsində, eləcə də Berlinə hücum əməliyyatında və Reyxstaqın alınmasında fəal iştirak edib. 1945-ci ilin mayında Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibədən sonra Tovuz şəhərində məsul vəzifələrdə çalışan Sovet İttifaqı Qəhrəmanı Yusif Sadıxov 1971-ci il iyulun 11-də vəfat edib.

Daha bir Sovet İttifaqı Qəhrəmanı, 1907-ci il yanvarın 1-də Tovuzun Əlimərdanlı kəndində anadan olan Mərdan Musayev haqqında onun bacısı oğlu Nizami Qurbanov ətraflı məlumat verib.

Qeyd edilib ki, müharibə illərində motoatıcı bölmənin komandiri olan Mərdan Musayev Dnepr çayını ilk keçənlərdəndir. Borisov şəhəri uğrunda gedən döyüşlərdə xüsusilə fərqlənib. İnqulets çayı yaxınlığında öz sinəsini qabağa verərək tabor komandirinin həyatını xilas edib və çoxlu sayda faşisti zərərsizləşdirib. Döyüşlərin birində ağır yaralanmasına baxmayaraq, düşmənə xeyli itki verib, düşmənin dəzgahlı pulemyotunu ələ keçirərək onların öz silahı ilə 20-dən çox faşisti məhv edib. İgidlik və cəsurluğuna görə "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif olunub. 1944-cü il iyunun 3-də ona Sovet İttifaqı Qəhrəmanı adı verilib. Müharibədən sonra Mərdan Musayev ömrünün sonunadək Tovuz rayonunda çalışıb.



Məzarı uzaq Almaniyada olan Sovet İttifaqı Qəhrəmanı Məstan Əliyev haqqında onun qardaşı qızı Şəfiqə Əliyeva məlumat verib.

Bildirib ki, onun əmisi 1918-ci ildə Əsrik Cırdaxan kəndində anadan olub. Kənd məktəbində müəllim işləyib. 1939-cu ildə hərbi xidmətə çağırılıb və müharibə başladığı ilk gündən 47-ci ordunun tərkibində döyüşüb. Oder çayının sol sahilində onun komandiri olduğu bölmə düşmənin 72 əsgər və zabitini əsir götürüb. Məstan Əliyev şəxsən özü 20-dən çox faşisti məhv edib. 1945-ci ilin aprelində Berlin uğrunda gedən döyüşlərdə əsl qəhrəmanlıq göstərərək həlak olub. 1945-ci il mayın 31-də ölümündən sonra Məstan Əliyev Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

Hazırda Məstan Əliyevin qəbri Almaniyada qardaşlıq qəbiristanlığındadır. Vətəndən uzaqlarda dəfn olunsa da, onun xatirəsi öz doğma Vətənində də əziz tutulur, xatirəsi əbədiləşdirilib.

Qələbə bayrağı və milli diviziyaların döyüş bayraqları ilə Gəncəyə gələn marafon iştirakçılarından estafeti Gəncə qarnizonunun gənc əsgərləri qəbul ediblər. Onlar birlikdə Gəncə şəhərindəki Xan bağı mədəniyyət və istirahət parkına gələrək burada dəfn olunmuş ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun məzarını ziyarət ediblər.

Məlumat verilib ki, Məmmədovlar ailəsi 1919-cu ildə Şəmkirin Qapanlı kəndindən Gəncəyə köçüb və elə həmin ildə də İsrafil Məhərrəm oğlu bu şəhərdə anadan olub. 1938-ci ildə hərbi xidmətə çağırılıb və müharibənin ilk günlərindən döyüşlərdə iştirak edib. 1941-ci ilin dekabrında şimal-qərb cəbhəsində xüsusilə fərqlənib. Novqorod vilayətinin Pustinka kəndi yaxınlığında əsl qəhrəmanlıq nümunəsi göstərib və azərbaycanlılar içərisində ilk olaraq Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Cəbhə komandanı general-leytenant Kuroçkin şəxsən özü döyüş meydanında Lenin ordeni və Sovet İttifaqı Qəhrəmanının "Qızıl Ulduz"unu İsrafil Məmmədova təqdim edib. O vaxtlar həm ön cəbhədə, həm də arxa cəbhədə "məmmədovçular" hərəkatı geniş vüsət almışdı.

Görkəmli yazıçımız Mir Cəlal Paşayev hələ müharibə illərində İsrafil Məmmədov haqqında oçerklər yazmış, 1942-ci ildə "İsrafil" kitabı nəşr olunmuşdur.

Gəncə şəhərində, Xan bağında İsrafil Məmmədovun məzarüstü abidəsi önündə keçirilən tədbirdə Böyük Vətən müharibəsi veteranı 97 yaşlı Tofiq baba cəbhə xatirələrini danışıb, gənc əsgərlərə ağsaqqal öyüd-nəsihəti verib, hərbi qulluqçular isə çıxış edərək ata-babaların qəhrəmanlıq ənənələrini şərəflə davam etdirəcəklərinə söz veriblər.

Marafon müddətində Gəncə Qarnizonu Zabitlər Evinin səyyar təşviqat dəstəsi müharibə illərinin mahnı və hərbi marşlarını təqdim edib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 287
Nüsxə 3525